**Azərbaycan Respublikasının Təhsil Nazirliyi və**
**"Bakı Ekspo 2025" Əməliyyat Katibliyi**
**"İnsan kapitalını inkişaf etdirərək, daha yaxşı gələcək quraq" mövzusunda**
**Elmi Məqalə Müsabiqəsi**

**Elan edir**

2025-ci ildə keçiriləcək Ümumdünya Ekspo Sərgisinə ev sahibliyi etməyə namizədliyi irəli sürülən şəhərlər arasında Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərinin də adı vardır. Bakının namizədliyinin dəstəklənməsi və Sərginin ölkəmizdə keçirilməsi ilə bağlı potensial imkanların təqdim olunması baxımından Sərginin prioritet mövzusu olaraq seçilmiş insan kapitalının inkişafı məsələlərinə dair elmi əsasların yaradılması mühüm aktuallıq kəsb edir.

Bununla əlaqədar olaraq, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və "Bakı Ekspo 2025" Əməliyyat Katibliyi "İnsan kapitalını inkişaf etdirərək, daha yaxşı gələcək quraq" mövzusunda Elmi Məqalə Müsabiqəsi elan edir.

Müsabiqənin mövzuları aşağıdakılardır:

1. ***İstedad: təhsilin gələcəyi***
   - təhsil davamlı inkişafın mühüm komponenti kimi;
   - keyfiyyətli təhsil insan kapitalının formalaşmasının əsas amili kimi;
   - multukultural dəyərlərin inkişafında ali təhsil və elmin rolu;
   - təhsil-elm-innovasiya modeli və qlobal çağırışlar;
   - yaradicilıq, mədəniyyyət və incəsənət ənənələrinin vəhdəti: təhsil spektrindən gələcəyə baxış.
2. ***Sağlamlıq: səhiyyənin gələcəyi***
   - sağlamliq üzrə qlobal çağırışlar;
   - sağlam cəmiyyət quruculuğu və insan resurslarının inkişaf etdirilməsi;
   - əlilliyi olan insanlar üçün bərabərhüquqlu cəmiyyət quruculuğu;
   - qida təhlükəsizliyi: yeni konsepsiyalar və perspektivlər;
   - ətraf mühitin qorunmasının insan kapitalının inkişafında rolu.
3. ***Nailiyyət: Məşğulluğun gələcəyi***
   - qlobal əmək bazarının əsas inkişaf trendləri
   - məşğulluq siyasəti modellər: dünya təcrübəsi;
   - innovasiyalarin inkişafı və məşğulluq arasında qarşılıqlı bağlılıq;
   - demoqrafik dəyişikliklərin insan kapitalının inkişafına potensial təsirləri;
   - rəqəmsal era: məşğulluğun təmin olunması üzrə yeni yanaşmalar.

Müsabiqədə hüquqi-təşkilati formasından asılı olmayaraq istənilən ali təhsil müəssisəsinin elmi-pedaqoji heyət üzvləri, o cümlədən doktorant, dissertant və magistrantları iştirak edə bilər. Müsabiqədə yaşı 35-ə qədər olan gənclər iştirak edə bilər.

Müsabiqə şərtləri ilə Müsabiqənin Əsasnaməsində (əlavə olunur) tanış olmaq olar.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 30 oktyabr 2018-ci il tarixinədək məqaləni competition@bakuexpo2025.com elektron poçt ünvanına göndərməlidirlər.

Əlaqə: (012) 599115 dax.5301; competition@bakuexpo2025.com

**Azərbaycan Respublikasının Təhsil Nazirliyi və**
**"Bakı Ekspo 2025" Əməliyyat Katibliyi tərəfindən**
**"İnsan kapitalını inkişaf etdirərək, daha yaxşı gələcək quraq" mövzusunda**
**Elmi Məqalə Müsabiqəsinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Hazırki Əsasnamə "Bakı Ekspo 2025" elmi məqalə müsabiqəsinin (bundan sonra "Müsabiqə" adlanacaq) şərtlərini müəyyənləşdirir.

1.2. Müsabiqə Azərbaycan Respublikasının Təhsil Nazirliyi və "Bakı Ekspo 2025" Əməliyyat Katibliyi tərəfindən birgə həyata keçirilir.

## 2. Müsabiqənin məqsədi

2025-ci ildə keçiriləcək Ümumdünya Ekspo Sərgisinə ev sahibliyi etməyə namizədliyi irəli sürülən şəhərlər arasında Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərinin də adı vardır. Bununla əlaqədar olaraq, bu Müsabiqənin məqsədi Bakının namizədliyinin dəstəklənməsi, Sərginin ölkəmizdə keçirilməsi ilə bağlı potensial imkanların təqdim olunması və Sərginin prioritet mövzusu olaraq seçilmiş insan kapitalının inkişafı məsələlərinə dair elmi əsasların gücləndirilməsindən ibarətdir.

## 3. Müsabiqənin mövzusu

3.1. Müsabiqə "İnsan kapitalını inkişaf etdirərək, daha yaxşı gələcək quraq" mövzusunda keçirilir.

3.2. Təqdim olunan elmi məqalələr aşağıdakı istiqamətlər üzrə müvafiq alt mövzulardan birinə uyğun olmalıdır:

3.2.1. ***İstedad: təhsilin gələcəyi***
- təhsil davamlı inkişafın mühüm komponenti kimi;
- keyfiyyətli təhsil insan kapitalının formalaşmasının əsas amili kimi;
- multukultural dəyərlərin inkişafında ali təhsil və elmin rolu;
- təhsil-elm-innovasiya modeli və qlobal çağırışlar;
- yaradicilіq, mədəniyyyət və incəsənət ənənələrinin vəhdəti: təhsil spektrindən gələcəyə baxış.

3.2.2. ***Sağlamlıq: səhiyyənin gələcəyi***
- sağlamliq üzrə qlobal çağırışlar;
- sağlam cəmiyyət quruculuğu və insan resurslarının inkişaf etdirilməsi;
- əlilliyi olan insanlar üçün bərabərhüquqlu cəmiyyət quruculuğu;
- qida təhlükəsizliyi: yeni konsepsiyalar və perspektivlər;
- ətraf mühitin qorunmasının insan kapitalının inkişafında rolu.

3.2.3. ***Nailiyyət: Məşğulluğun gələcəyi***
- qlobal əmək bazarının əsas inkişaf trendləri;
- məşğulluq siyasəti modelləri: dünya təcrübəsi;
- innovasiyalarin inkişafı və məşğulluq arasında qarşılıqlı bağlılıq;
- demoqrafik dəyişikliklərin insan kapitalının inkişafına potensial təsirləri;
- rəqəmsal era: məşğulluğun təmin olunması üzrə yeni yanaşmalar.

## 4. Müsabiqədə iştirak şərtləri

4.1. Müsabiqədə hüquqi-təşkilati formasından asılı olmayaraq istənilən ali təhsil müəssisəsinin elmi-pedaqoji heyət üzvləri, o cümlədən doktorant, dissertant və magistrantları iştirak edə bilər.

4.2. Müsabiqədə yaşı 35-ə qədər olan gənclər iştirak edə bilər.
4.3. Hər iştirakçı Müsabiqəyə yalnız bir məqalə təqdim edə bilər.
4.4. Müsabiqədə iştirak etmək istəyən şəxslər 30 oktyabr 2018-ci il tarixinədək məqaləni **competition@bakuexpo2025.com** elektron poçt ünvanına göndərməlidirlər.

**5. Müsabiqəyə təqdim olunan elmi məqalələrə dair əsas tələblər**

5.1. Məqalə bu Əsasnamənin 3-cü bəndində göstərilən əsas mövzuya həsr olunmaqla tədqiqat probleminin aktuallığını əks etdirməli və elmi əsaslandırılmış nəticələr irəli sürməlidir.
5.2. Məqalə seçilmiş mövzunun "Bakı Ekspo 2025" ilə əlaqələndirilməsini özündə ehtiva etməlidir.
5.3. Məqalə Azərbaycan, rus və ingilis dillərindən birində yazıla bilər.
5.4. Mətn 2000-5000 sözdən ibarət olmaqla Arial şriftilə (hərflərin ölçüsü – 12, interval – 1,5) yığılmalıdır.
5.5. Mətnin əvvəlində müəllifin soyadı, adı və atasının adı, işlədiyi ali təhsil müəssisəsinin adı, elmi dərəcəsi, tutduğu vəzifəsi, elektron poçt ünvanı və məqalənin adı yazılır.
5.6. Məqalədə istifadə edilmiş elmi ədəbiyyata istinad və mənbələr bu qaydada göstərilir:
- Ədəbiyyat siyahısı mətnin sonunda AAK-ın tələbləri əsasında əlifba sırası ilə verilir.
- İstinad olunan ədəbiyyat nəşr olunduğu dildə verilir.
- İstinad olunan ədəbiyyatın nömrəsi və səhifəsi mətnin içərisində göstərilir (*Məsələn*: 6, səh.252).

5.7. Məqalənin sonunda onun yazıldığı dildən əlavə Müsabiqənin digər iki dilində xülasə və açar sözlər verilir.

**6. Müsabiqə qaliblərinin müəyyənləşdirilməsi**

6.1. Qalibləri müəyyənləşdirmək üçün Azərbaycan Respublikasının Təhsil Nazirliyi və "Bakı Ekspo 2025" Əməliyyat Katibliyi tərəfindən müstəqil ekspertlərdən ibarət Münsiflər heyəti yaradılır.
6.2. Münsiflər heyəti məqalənin bu Əsasnamənin 5-ci bəndinin tələblərinə uyğunluğu, məqalədə təqdim olunan elmi yeniliyin və nəticələrin əhəmiyyəti, eləcə də tətbiq edilən yaradıcı yanaşma meyarlarına əsasən məqalələri qiymətləndirir və qalibləri müəyyən edir.
6.3. Müsabiqənin nəticələri ilə bağlı appelyasiya nəzərdə tutulmur.

**7. Müsabiqə qaliblərinin mükafatlandırılması**

7.1. Müsabiqə qalibləri I, II və III yerlər üzrə müəyyən edilir.
7.2. "Bakı Ekspo 2025" Əməliyyat Katibliyi tərəfindən I yerin qalibinin Beynəlxalq Sərgilər Bürosunun Paris şəhərindəki mənzil qərargahına səfəri təşkil olunur, II və III yerin qalibləri xüsusi diplom və qiymətli hədiyyələr ilə təltif edilir.
7.3. Müsabiqənin nəticələri 10 noyabr 2018-ci il tarixində elan olunur.
7.4. Müsabiqə qaliblərinin məqalələri https://bakuexpo2025.com saytında dərc olunur.